**UOT 821.512.162**

**Təbriz ƏHƏDOV**
AMEA Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
**tehedov@gmail.com**

# TƏBRİZ TARİXİ-MƏDƏNİ FENOMEN KİMİ VƏ ONUN CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATINDA TƏSVİRİ

**Acar sözlər:** Cənubi Azərbaycan şairləri, Təbriz mövzusu, Azərbaycan poeziyası, Cənubi Azərbaycan

**Keywords:** Poets of South Azerbaijan, Tabriz theme, Azerbaijani poetry, South Azerbaijan

**Ключевые слова:** Поэты Южного Азербайджана, Тебризская тема, Азербайджанская поэзия, Южный Азербайджан

## Giriş

Təbriz böyük mədəniyyət mərkəzi kimi hər zaman istər Cənubi, istərsə də Şimali Azərbaycan şairlərinin qiymətli mövzuları ilə ədəbiyyat tarixinə daxil edilmişdir. Yüzə qədər şairin Təbrizdə dünyaya göz açması və yaradıcılıqlarında vətəni, Təbrizi vəsf etməsi, fərqli şəkildə təqdim etməsi dəyərli bir araşdırmadan xəbər verir. Qətran Təbrizi, Saib Təbrizi, Xətib Təbrizi, Hümam Təbrizi, Hüseyn Təbrizi, Arif Təbrizi, Qövsi Təbrizi, Rəhməti Təbrizi, Mirzə Möhsün Təsir Təbrizi, Təbrizi Alim Təbrizi, Bəxti Təbrizi, Fani Təbrizi, Raci Təbrizi, Ahi Təbrizi, Şəhriyar Təbrizi və onlarca Təbriz doğumlu şairlər Cənubi Azərbaycan poeziyasında qiymətli yer tutublar. Bu şairlərin əksəriyyətinin şeirlərində Təbriz mövzusu geniş yer tutur. Seyid Məhəmməd Hüseyn Behçəti Təbrizi yaradıcılığından "Təbriz gözəli" şeirində də Təbrizə, Təbriz gözəllərinə vurğunluq, sevgi və diqqəti görmək olur.

Salam eylər, əyilər səcdənə Təbriz gözəli,
O zərif sərvi-İrəm ki, özü Şiraz gülüdür [1, s.242].

Şeirdə Təbriz gözəlinin vəsfiylə yanaşı, onun daxili aləminin gözəllikləri də poetikləşdirilmişdir. Təbriz gözəlinin obrazı bütün tamlığıyla təcəssüm etdirilir. Təbriz mövzusu Qulamrza Səbri Təbrizinin yaradıcılığında önəmli yer tutur. Şairin yaşadığı ayrılıq, həsrət əsas mövzusunun Vətən mövzusu üzərində təcəssüm edilməsinə səbəb olmuşdur. Qürbət, mühacir həyatı şairin Təbriz ağrılarında poetikləşir.

Kifayət Məmmədova "Qulamrza Səbri Təbrizinin elmi, ədəbi və ictimai fəaliyyəti" başlıqlı namizədlik dissertasiyasında yazır: "Bütün mühacirlər kimi, Qulamrza bəyin də bəxtinə, taleyinə düşən kədərli və iztirablı həyat yolu onun şeirlərinə hopmuş və yazılarına həzin, nisgilli bir ovqat aşılamışdır. O, ürəyindəki ilham məşəlini, püskürən həsrət vulkanını yalnız poeziyanın odlu, alovlu, təsirli dililə sürdürməyə müvəffəq olmuşdur. Görkəmli ədib gördüyünü sözə çevirən, dərk etdiyinə həyat eşqi verən, hisslərinə toxunanı şair qəlbi ilə vəsf edən sənətkardır. Təbrizinin şeiri elə Təbrizi varlığıdır" [2, s.33].

Şairin şeirlərində Vətən mövzusu yaradıcılığının təməl daşına çevrilmişdir. Ayrılıq zamanında onun yeganə düşüncəsi Təbriz həsrəti olur. Vətən həsrəti ilə yanıb qovrulan şair vətənə dönüb uşaqlaşmağı hər şeydən çox arzulayır.

İstəyirəm dönəm Vətənə,
Yoram Təbrizin küçələrini.
Ordakı uşaqlığımı itirmişəm,
Orda ki, oynayardım.
Qucaqlardım,
Öpərdim dostlarımı,
tapam orda cavanlığımı [3, s.101].

Sərbəst vəzndə şeirlər yazan müəllif əslində həsrətin, nisgilin ağrısını ölçüyə yerləşdirə bilmir. İçindən gələn kimi ağrısını misralarda yaşayır. Uşaqlıq illərini tut ağacının altında yaşayan şair bu yaşamı unuda bilmir. Harada olursa-olsun nə Təbrizi, nə də tut ağacını unuda bilir. Şair hər zaman düşünür ki, Təbrizə qayıtsa, o tut ağacının altında əzabları və ağrısı tut kimi çırpılıb vücudundan töküləcək.

Yadıma düşür Təbrizdə
tut ağacının altında
keçən günlərim.
Unudulur dərdlərim,
Tökülür əzablarım
Vücudumdan tut kimi [4, s.187].

Onun yaradıcılığında parçalanmış bir Vətən obrazı var. Vətənin bütövlüyü şairin ən ümdə arzularından biridir. Qulamrza Təbrizi yazır:

Bir gün yuxuda gördüm,
Təbrizin xiyabanları boyu
Süd axır su arxlarından,
Düşündüm, bu süd
Hardan gəlir?
Fırlandım o tərəfə,
Fırlandım bu tərəfə [5, s.77].

Qulamrza Təbrizi şeirlərinin təsir gücü, sətiraltı mənası Təbrizin gözəlliklərindən başqa, ona olan sevgi və həsrətdən başqa, bir az da siyasi məqamları da açıqlamağa səy göstərir və istədiyinə yetərincə nail olur. Bu şeir bir az da publisistik ruha köklənir. Təbriz boyu axan süd əslində insanların burunlarından gələn ana südüdür. Buna da səbəb olanları şair açıqca tənqid atəşinə tutur.

Təbriz mövzusu Mədinə Gülgün poeziyasında da yadda qalıb. Onun 1950-ci ildə çap olunan ilk kitabı da məhz “Təbrizin baharı” adlandırılmışdır.

Şairin Təbriz şeirləri haqqında yazan Vüqar Əhməd onun Bakı və Təbriz sevgisini əks etdirən şeirlərindən bəhs edərək yazır: “Mədinə Gülgün Şimalda Cənub həsrəti çəkirdi. Məhz buna görə şairin poeziyasında diqqəti cəlb edən cəhətlərdən biri də Vətənə bağlılıq, o tay-bu tay həsrəti, Şimal-Cənub təəssübüdür.

Bir torpaq üstündə doğulmuşuq biz,
Bir qolum Bakıdır, bir qolum Təbriz.

Mədinə Gülgünün əksər şeirləri Vətən özləmi, yurd nisgili qoxuyur. “Yaxındır Təbrizin yolu” və o yaxın yolu qət etməkçün “bir ömür də çatmadı” və ya “Dərdli-dərdli ötərəm Təbrizi görməyincə” və yaxud “Gözümdə dünyanın həsrəti, qəmi” şeirlərində şairin Vətən həsrətini, könül nisgilini, qəlb yanğısını duyuruq:

Təbrizin gülləri qönçə,
Güllər açmaz mən gəlincə” [6, s.2015].

Şairin tərcümeyi-halı xatırladan daha bir şeirində Təbriz həsrəti təsirli olduğu qədər də, duyğusal məqamlara köklənir. Digər həmkarlarının yaradıcılığında Təbriz gözəllikləri nə qədər dərin yer alırsa da, Mədinə Gülgünün bu şeirində həsrətin, ayrılığın ağrısını hiss etmək olur. Eyni zamanda, içində bir həsrət ağrısı daşıyan şairin könül yanğısını duymaq çətin deyil. Bu şeirdə böyük şairənin mənəvi dünyasını, yaşantılarını hiss edir və həsrət daşıyan bir şair obrazını görürük.

Mənim, ey dost, o sahildə neçə nəğmə, sözüm qaldı,
Bahar fəsli alovlandı, bağım, bağçam, düzüm qaldı.
Əmək çəkdim səhər-axşam, çiçəkli, güllü bağ saldım.
O bağda gözləri yaşlı bənövşəm, nərgizim qaldı.
Vətən dərdi yaman dərddir, əsir yarpaq kimi qəlbim,
Haray, ellər, yad ellərdə sevincli Təbrizim qaldı.
Deyin ki Gülgünə, gəlsin, alışdım, yandım həsrətdən,
Fəqət məhv olmadım, ey dost, kül altında közüm qaldı [7, s.7].

Şeir Təbriz dərdini təcəssüm etdirən ən ağrılı yazılardandır desək, heç də yanılmarıq. Şeirin sonunda isə şairin nikbin ruhda özünüifadəsi gözəl hisslər doğurur.

Təbriz mövzulu şeirləri şairlər müxtəlif şeir ölçülərindən istifadə edərək qələmə almışlar. Bu baxımdan təcnis üzərindən Təbriz həsrətli, Təbriz sevdalı şeirlər də güclü və təsirli Cənub ədəbiyyatı nümunələri kimi yadda qalır. Belə şairlərdən biri də Məhəmmədəli Məzhundur. Şair “İstərəm başına dolanım, Təbriz!” şeirində Təbrizə olan sevgisini poetikləşdirir.

Gəlmişəm öpməyə torpağın yenə,
Bu əziz vətənim, cananım Təbriz!
Nə qədər ömrüm var, istərəm sənsiz
Olmasın bir günüm, bir anım, Təbriz! [8, s.14]

Şeirdə cananı ilə vətənə olan sevgisini tən tutan müəllifin Təbrizdən bir an da belə ayrı qala bilməməsi, bütün ömrü boyu Təbrizdə yaşamaq istəyi qabardılır. Əslində sadə, aydın xalq dili səviyyəsində ifadə edilən bu istəkdə heç bir qeyri-adilik olmasa da, ancaq şairin içindən su içən bu duyğusal və sevgi dolu istək xoş təəssürat yaradır. Burada bütün dünyanı gəzib dolanan, yalnız xoşbəxtliyi və hüzuru Təbrizdə tapan bir insan obrazını görmək olur ki, bu şəxş qəlbindəki bütün acı və dərdləri yalnız Təbrizdə silib ata bilir.

Gəzib dolansam da cümlə-mahalı,
Mən səndə tapmışam əqlü-kamalı,
Sənsən ürəyimdən silən məlalı,
Qurbandır yolumda bu canım, Təbriz!

**Nəticə**

Son olaraq Cənubi Azərbaycan şairlərinin yaradıcılığında Təbriz mövzusunun yetərincə təcəssüm edildiyi müşahidə olunur. İyirminci əsrin ilk illərindən etibarən Təbriz mövzusunun daha çox gündəmə gəldiyini görmək olur. Bu şeirlərdə Təbrizin mədəniyyət beşiyi olması, onun ictimai-siyasi-sosial yaşantıları, gözəllikləri, orada aparılan mübarizələr əks edilmişdir. Xüsusilə Təbrizə olan sevgi və Təbriz həsrətini ifadə edən şeirlər daha çox üstünlük təşkil edir. Bu şairlərin hər birinin Təbrizə bağlılığı, Təbriz sevdalı olduqları poeziyalarında yetərincə işıqlandırılmışdır və bu da elə Təbriz vurğunluğundan irəli gəlir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:


1. Məhəmmədhüseyn Şəhriyar. Seçilmiş əsərləri. Bakı: “Avrasiya press”, 2005, 480 səh.
2. Məmmədova Kifayət. Qulamrza Səbri Təbrizinin elmi, ədəbi və ictimai fəaliyyəti. Namizədlik dissertasiyası, Bakı, 2018
3. Təbrizi Qulamrza Səbri. Xudafərin. Bakı: “Turan evi”, 2005
4. Təbrizi Qulamrza Səbri. “Təbriz xiyabanları” şeiri, “Ümid çırağı”. Bakı: “Şirvannəşr”, 2002, 160 s.
5. Vüqar Əhməd. Cənubi Azərbaycan poeziyası. “Xalq cəbhəsi” qəzeti, 12 noyabr, 2015
6. “Dastana çevrilmiş həyat” – Şairə Mədinə Gülgünün 95 illiyi münasibətilə hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. A.Əliyeva. Bakı, 2021, 32 s.
7. Vüqar Əhməd. İstərəm başına dolanım, Təbriz! “Xalq Cəbhəsi”, 2015, 12 noyabr, s.14


***Tabriz AHADOV***

## Tabriz as a historico-cultural phenomenon and it's description in Southern Azerbaijani literature

### ***S u m m a r y***

The path of poetry was not only lyrical feelings of love, but also struggles. Faced with the hardships of history from time to time, Azerbaijani poetry has a patriotic and social content. In all epochs, the feeling of freedom from the spirit of the Azerbaijani people was not lacking. In the second half of the twentieth century, the longing for South Azerbaijan attracts special attention in the works of all poets. Twentieth-century poetry, in which political lyricism is widespread, is characterized by an all-Turkic culture engraved in the genetic memory of the Azerbaijani people fighting for national independence and freedom.

In the twentieth century Azerbaijani literature, especially in poetry, there were poems glorifying the social and political injustices faced by the people and the artistic truths arising from these injustices, longing for the homeland, democratic national ideas about separation.

At the end of the century, conditions were created in South Azerbaijan for the publication and development of the native language press. In Tabriz, Urmia, Tehran, "Land of Fire", "Chanlibel", "Araz", "Azerbaijan", "For the Motherland", "Freedom", "Brotherhood", "Existence", "Dada Gorgud", "On the way to revolution", Newspapers and magazines such as "Voice of Azerbaijan" began to be published.

In Azerbaijani literature, poetry has the power to transcend centuries, reaching the highest peaks of time. In twentieth-century Azerbaijani poetry, the theme of the South, especially Tabriz, is characterized by high art and the breadth of national colors.

***Тебриз АХАДОВ***

## Тебриз как историко-культурный феномен и его описание в литературе Южного Азербайджана

***Р е з ю м е***

Путь поэзии, наряду с лирическим чувством любви, также прошел через борьбу. Столкнувшись время от времени с невзгодами истории, азербайджанская поэзия имеет патриотическое и социальное содержание. Во все эпохи было в чувстве свободы от духа азербайджанского народа. Во второй половине XX века тоска по Южному Азербайджану привлекает особое внимание в произведениях всех поэтов. Поэзия XX века, в которой широко распространен политический лиризм, характеризуется общетюркской культурой, запечатленной в генетической памяти азербайджанского народа, борющегося за национальную независимость и свободу.

В Азербайджанской литературе двадцатого века, особенно в поэзии, были стихи, воспевающие социальную и политическую несправедливость, с которой сталкивается народ, и художественные истины, проистекающие из этой несправедливости, тоску по родине, демократические национальные идеи о разделении.

В конце века в Южном Азербайджане были созданы условия для издания и развития газеты и журналы прессы на родном языке. В Тебризе, Урмии, Тегеране, “Страна огней”, “Чанлибель”, “Араз”, “Азербайджан”, “За Родину”, “Свободу”, “Братство”, “Существование”, “Дада Горгуд”, “Путь к революции”, “Голос Азербайджана”.

В Азербайджанской литературе поэзия способна преодолевать века, достигая высочайших вершин времени. В азербайджанской поэзии XX века тема Юга, особенно Тебриза, отличается высоким искусством и широтой национального колорита.